**Azərbaycan Respublikası Təhsil Nazirliyi**

**Bakı İdarəetmə və Texnologiya kolleci**

# Azərbaycan Respublikasının Konstitusiyası və hüququn əsasları

fənninin

# PROQRAMI

Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı İdarəetmə və Texnologiya Kollecinin Metodiki şurasının 15 sentyabr 2017-ci il tarixli iclasının qərarı ilə təsdiq edilmişdir.
( Protokol № 1 )

**Bakı 2017**

**Tərtib etdi:**
Bakı İdarəetmə və Texnologiya Kollecinin müəllimi — Qurbanova Gülnarə Kazım

**Redaktor:** — Əbdürrəhimova Vüsalə Güloğlan

Bakı İdarəetmə və Texnologiya Kollecinin müəllimi

**Rəy verənlər:**

Bakı İdarəetmə və Texnologiya Kollecinin müəllimi — Əhmədov Fuad Əkbər

## İZAHAT VƏRƏQİ

Cəmiyyət və dövlət məhz ictimai münasibətlərin nizamlandığı, ictimai qaydalara riayət olunduğu şəraitdə normal fəaliyyət göstərə bilir. İctimai həyatın təşkilində, o cümlədən insanların davranışının və onların fəaliyyətinin nizamlanmasında hüquq mühüm rol oynayır. Çünki insanlar həyatın bütün hallarında müxtəlif xarakterli ictimai münasibətlərə daxil olurlar ki, bu münasibətlərin də əksər hissəsini hüquq normaları ilə tənzim edilən hüquq münasibətləri təşkil edir. Müvafiq münasibətlərin yalnız hüquqla tənzmlənməsi isə hüquqi dövlətə xarakterik əsas əlamətdir.

"Azərbaycan Respublikasının Konstitusiyası və hüququnun əsasları" fənninin predmeti, obyekti, metodikası ilə yanaşı, kursun proqramına uyğun olaraq hüququn əsas anlayışları, kateqoriyaları, hüququn ayrı-ayrı sahələri, xüsusilə mülki hüquq sahəsinin əsas yarım sahələri - mülkiyyət hüququ və öhdəlik hüququnun ətraflı öyrənilməsi, habelə, əmək hüququ, mülki prosessual hüquq və cinayət hüququnun əsaslarının tədris edilməsini əks nəzərdə tutur.

"Azərbaycan Respublikasının konstitusiyası və hüququn əsasları" kursunun məqsədi tələbələrə ümumilikdə konstitusion hüquqlar və iqtisadi fəaliyyət reallaşdırılan zaman bu və ya digər formada istinad edilən hüquq sahələri haqqında bilgilərin aşılanmasıdır. Bununla belə, tələbələrdə ümumilikdə hüquq sistemi və hüquq institutları, o cümlədən, dövlət və siyasi hakimiyyət, hüquq sisteminin konstitusiya əsasları, Azərbaycan Respublikasında qanunvericilik, icra və məhkəmə hakimiyyəti, mülki hüquq münasibətləri, mülkiyyət hüququ, onun əldə edilməsi, itirilməsi və müdafiəsi, əmək hüququnun əsasları, cinayət hüququ və s. haqqında təsəvvürün yaradılması kursun tədrisinin mühüm məqsədlərindən hesab edilir.

Fənnin tədrisinə 30 saat ayrılmışdır: 15 saat mühazirə və 15 saat məşğələ.

## MÖVZULAR ÜZRƏ SAATLARIN PAYLANMASI

| № | MÖVZULAR | Mühazirə | Seminar |
|---|---|---|---|
| 1. | Azərbaycan Respublikasının Konstitusiyası dövlətin əsas qanunudur. Hüququn əsas anlayışı | 2 | 2 |
| 2. | Hüquq sisteminin konstitusiya əsasları | 2 | 2 |
| 3. | Azərbaycan respublikasında qanunvericilik, icra və məhkəmə hakimiyyəti | 2 | 2 |
| 4. | Mülki hüququn anlayışı, predmeti və mülki hüquq münasibətləri. | 2 | 2 |
| 5. | Mülkiyyət hüququ, onun əldə edilməsi, itirilməsi və müdafiəsi | 2 | 2 |
| 6. | Əmək hüququnun anlayışı. Əsasları və mənbələri.Əmək hüququnun münasibətləri. Əmək müqaviləsinin anlayışı tərəfləri və məzmunu | 2 | 2 |
| 7. | Cinayət hüququnun anlayışı və vəzifələri . Cinayət hüququnun əsas prinsipləri . Cinayətdə iştirakçılıq | 2 | 2 |
| 8. | İnzibati hüququnun anlayışı. İnzibati hüququn mənbəyi. İnzibati hüquq münasibətləri | 1 | 1 |
| **Cəmi: 30 saat** | | | |

## MÖVZULAR VƏ ONLARIN IZAHI

. ***Mövzu 1.*** **Azərbaycan Respublikasının Konstitusiyası dövlətin əsas qanunudur. Hüququn əsas anlayışı – 4 saat.**

Hüququn anlayışı. Hüququn mahiyyəti. Hüququn əlamətləri. Çağdaş hüquq sistemləri. Azərbaycanın hüquq sistemi. Hüquq normaları. Hüquq normasının strukturu. İmperativ və dispozitiv normalar. Dövlət və hüququn qarşılıqlı əlaqəsi. Hüququn mənbələri. Azərbaycan Respublikasının Konstitusiyası**.** Konstitusiya qanunları. Qanun və qanundan aşağı qüvvəli normativ aktlar. Prezident fərmanları. Nazirlər Kabinetinin qərarları. Hüquq sahələri, anlayışı və sistemi. İqtisadi fəaliyyətlə əlaqəli hüquq sahələri. Hüquq münasibətləri: anlayışı, xüsusiyyətləri və subyektləri. İqtisadi fəaliyyətlə əlaqəli hüquq münasibətləri. Hüquq pozuntusunun anlayışı, tərkibi və növləri. Hüquqi məsuliyyətin anlayışı, əsas əlamətləri və növləri.

***Mövzu 2.*** **Hüquq sisteminin konstitusiya əsasları – 4 saat.**

Dövlətin anlayışı. Dövlət və dövlət hakimiyyəti. Dövlət və vətəndaş cəmiyyəti. Hakimiyyətin cəmiyyətdə rolu və mahiyyəti.

Dövlətin əsas qanunu kimi konstitusiyanın anlayışı və onun sosial-iqtisadi mahiyyəti. Azərbaycan Respublikası Konstitusiyasının inkişaf mərhələləri. Azərbaycan dövlətinin konstitusiya statusu.

İnsan və vətəndaşın hüquqi statusunun anlayışı və prinsipləri. Azərbaycan Respublikası vətəndaşlığının əldə olunması. İnsan və vətəndaşın əsas hüquq və azadlıqları: sosial-iqtisadi hüquqlar. Qeyri-hökumət təşkilatlarının (İctimai birliklərin) hüquqi statusunun əsasları.

***Mövzu 3.*** **Azərbaycan respublikasında qanunvericilik, icra və məhkəmə hakimiyyəti – 4 saat.**

Azərbaycan Respublikası Milli Məclisinin fəaliyyətinin əsasları. Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyətləri. Milli Məclis deputatının hüquqi statusu. Qanunvericilik prosesi. Qanunvericilik hakimiyyətinin hakimiyyət bölgüsü sistemində yeri və onun digər hakimiyyət qolları ilə qarşılıqlı əlaqəsi. Azərbaycan Respublikası Prezidentinin Konstitusiya statusunun əsasları. Azərbaycan Respublikası Prezidentinin seçilməsi və səlahiyyətlərinin xitam edilməsi qaydaları. Azərbaycan Respublikası Nazirlər Kabineti Prezidentin yanında icra hakimiyyətinin yuxarı orqanı kimi. Məhkəmə hakimiyyəti - dövlət hakimiyyətinin müstəqil qolu kimi. Azərbaycan Respublikasının məhkəmə sistemi: məhkəmə

müdafiə hüququ və məhkəmə üsulunun formaları. Hakimlərin hüquqi statusu. İxtisaslaşmış məhkəmələr: İnzibati və iqtisad məhkəmələri. Azərbaycan Respublikası Prokurorluğu.

***Mövzu 4.*** **Mülki hüququn predmeti və mülki hüquq münasibətləri.– 4 saat.**

Mülki hüququn anlayışı və sistemi. Mülki qanunvericiliyin ümumi səciyyəsi.

Mülki hüquq münasibətlərinin anlayışı, növləri və məzmunu. Mülki hüquq münasibətlərinin subyektləri. Fiziki şəxlər mülki hüququn subyekti kimi. Hüquqi şəxslər və onların növləri. Mülki hüququn digər subyektləri. Mülki hüquq münasibətlərinin obyektləri: əşyalar, yaradıcılıq fəaliyyətinin nəticələri, işlər və xidmətlər, qeyri-maddi nemətlər. Mülki hüquqda əqdlər. Mülki hüquqi müqavilə və onun əsas növləri. Mülki hüquqi müqavilədən irəli gələn öhdəliklər. Mülki hüquq pozuntularının (deliktlərin) məhkəmə qaydasında müdafiəsi. İddia müddəti.

***Mövzu 5.*** **Mülkiyyət hüququ, onun əldə edilməsi, itirilməsi və müdafiəsi – 4 saat.**

Mülkiyyətin sosial-iqtisadi mahiyyəti. İctimai münasibətlərin əsası kimi mülkiyyətin rolu. Mülkiyyət hüququnun anlayışı və məzmunu. Mülkiyyət hüququnun formaları və növləri. Mülkiyyətin konstitutsion əsasları. Dövlət, bələdiyyə və xüsusi mülkiyyət formaları.Mülkiyyət hüququnun əldə edilməsi və itirilməsi (xitamı). İlkin və törəmə üsulları. Müsadirə və rekvizisiya. Mülkiyyət hüququnun və digər əşya hüquqlarının müdafiəsi. Vindikasiya və neqator iddiaları.

***Mövzu 6.*** **Əmək hüququnun anlayışı. Əsasları və mənbələri. Əmək hüququnun münasibətləri. Əmək müqaviləsinin anlayışı tərəfləri və məzmunu – 4 saat.**

Əmək hüququnun anlayışı və mənbələri. Əmək hüququnun konstitutsion əsasları. Əmək hüquq münasibətləri. Əmək hüququnun subyektləri və obyektləri. İşçi, işəgötürən və həmkarlar təşkilatı əmək hüququnun subyekti kimi.Kollektiv müqavilə və saziş. Əmək müqaviləsi: anlayışı, tərəfləri və məzmunu. Əmək müqaviləsinin bağlanması qaydası və əmək müqaviləsinə xitam verilməsinin əsasları. İş vaxtının və istirahət vaxtının anlayışı. Tam, qısaldılmış, natamam iş vaxtı. İş vaxtının rejimi. Əmək məzuniyyətinin anlayışı, müddətləri və onun verilməsi qaydası. Əmək haqqı və onun hüquqi əsasları. Əmək və icra intizamı. Maddi məsuliyyət. Əməyin mühafizəsi. Əmək mübahisələri: fərdi və kollektiv əmək mübahisələri.

***Mövzu 7.*** **Cinayət hüququnun anlayışı və vəzifələri . Cinayət hüququnun əsas prinsipləri . Cinayətdə iştirakçılıq – 4 saat**

Cinayət hüququnun anlayışı və vəzifələri. Cinayət hüququnun əsas prinsipləri: qanunçuluq, qanun qarşısında bərabərlik, təqsirə görə məsuliyyət (təqsirsizlik prezumsiyası), ədalət və humanizm prinsipi. Cinayət qanunu və cinayətin anlayışı. Cinayətin növləri: böyük ictimai təhlükə yaratmayan cinayətlər, az ağır cinayətlər, ağır cinayətlər, xüsusilə ağır cinayətlər. Cinayət məsuliyyətinin anlayışı və əsasları. Yetkinlik yaşına çatmayanların cinayət məsuliyyəti. Cinayətdə iştirakçılıq: təşkilatçı, təhrikçi, köməkçi, icraçı. Mütəşəkkil cinayətkarlıq. Əməlin cinayət olmasını aradan qaldıran hallar: zəruri müdafiə, son zərurət, əsaslı risk, cinayətkarın saxlanılması, əmrin və ya sərəncamın yerinə yetirilməməsi. Cəzanın anlayışı və məqsədi. Cəzanın sistemi və növləri. Mülkiyyət əleyhinə olan cinayətlər. İqtisadi fəaliyyət sahəsində olan cinayətlər. Dövlət hakimiyyəti, dövlət qulluğu mənafeyi və yerli özünüidarəetmə orqanlarında qulluq mənafeyi əleyhinə olan cinayətlər.

***Mövzu 8.*** **İnzibati hüququnun anlayışı. İnzibati hüququn mənbəyi. İnzibati hüquq münasibətləri. – 4 saat.**

İnzibati hüququn anlayışı, predmeti, metodu. İnzibati hüququn digər hüquq sahələri ilə qarşılıqlı əlaqəsi.İnzibati hüququn mənbəyi. Azərbaycan Respublikasının qanunları. Prezident fərmanları. Nazirlər Kabinetinin qərarları. Mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktları. İnzibati hüququn sistemi: ümumi və xüsusi hissə. Dövlət idarəetməsi. Ayrı-ayrı idarəetmə sahəsində ictimai münasibətlərin tənzimlənməsi. İnzibati hüquq münasibətləri və onun anlayışı. İnzibati hüquq münasibətlərinin subyektləri. İcra hakimiyyəti orqanları, fiziki şəxslər inzibati hüquq münasibətlərinin subyekti kimi. İnzibati məsuliyyət və onun anlayışı. İnzibati xəta. İnzibati xəta tərkibi. İnzibati tənbeh və onun növləri. Xəbərdarlıq, inzibati cərimə, müsadirə, inzibati həbs.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Konstitusiyası.
2. «Normativ hüquqi aktlar haqqında» AR-nın 26.11.1999-cu il tarixli Qanunu.
3. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. 26 may 2012
4. Azərbaycan Respublikasının Əmək Məcəlləsi. 2012
5. Azərbaycan Respublikasının Əmək Məcəlləsinin Kommentariyası. Bakı, 2007
6. Z.Əsgərov. Konstitusiya hüququ. Dərs vəsaiti. Bakı, BDU-nun nəşriyyatı, 2002
7. E.Nəsirov. Yerliözünüidarəetmənin hüquqi tənzimi. «Qanun» jurnalı1998. №6.
8. Ş.Əliyev. Prezidentlik institutu. Bakı, 1994.
9. S.S. Allahverdiyev. Mülki hüquq. Dərslik. Bakı-2008 -2009, 3 cilddə
10. Z.Əsgərov. Naxçıvan Muxtar Respublikasının Konstitusiya statusu. Bakı, 1999
11. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. 2012


.

**Bakı İdarəetmə və Texnologiya Kollecinin "Azərbaycan Respublikasının Konstitusiyası və hüququn əsasları" fənn müəllimi Qurbanova Gülnarə Kazım qızının orta ixitsas müəssisələrində təhsil alan tələbələr üçün "Azərbaycan Respublikasının Konstitusiyası və hüququn əsasları" fənnindən hazırladığı proqrama**

**Rəy**

Qurbanova Gülnarə Kazım üzının tərtib etdiyi "Azərbaycan Respublikasının Konstitusiyası və hüququn əsasları" fənni proqramında Azərbaycan Respublikasının Konstitusiyası barədə geniş məlumat verilmişdir. Həmçinin proqramda hüquq sistemi, hakimiyyətin sahələri barədə izahatlar öz əksini tapmışdır.

Hüququn müxtəlif sahələri: mülki hüququn anlayışı, predmeti, mülki hüquq münasibətləri, mülkiyyət hüququ barədə, əmək hüququ, cinayət hüququ, inzibati hüquq və bu hüquq sahələrinin anlayışı, nizamlama predmeti barədə məlumatlar verilmişdir.

Proqramın bu tip tədris metodiki sənədlərə dair normativ tələblərə cavab verdiyini nəzərə alaraq çapa məsləhət görülməsi məqsədəuyğundur.

Bakı İdarəetmə və Texnologiya Kollecinin
müəlimi Əhmədov Fuad

**Bakı İdarəetmə və Texnologiya Kollecinin Azərbaycan Respublikasının Konstitusiyası və hüququn əsasları fənn müəllimi Qurbanova Gülnarə Kazım qızı orta ixitsas müəssisələrində təhsil alan tələbələr üçün Azərbaycan Respublikasının Konstitusiyası və hüququn əsasları fənnindən hazırladığı proqrama**

**Rəy**

Ad, Soyad

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI İDARƏETMƏ VƏ TEXNOLOGİYA KOLLECİ**

**Kollecin “ Humanitar və İqtisadiyyat ” fənn birləşmə komissiyasının**

**“_____12_____” _____09________2017-ci il tarixli _1__ saylı**

**PROTOKOLUNDAN ÇIXARIŞ**

**Iştirak etdilər:**

1.Əfəndiyeva Şölə
2.Əbdürrəhimova Vüsalə
3.Abdullayeva Təzəgül
4.Fərəcova Fəqumə
5.Əhmədov Fuad

**Eşidildi: Qurbanova Gülnarə Kazım** qızı tərəfindən yazılmış “Azərbaycan Respublikasının Konstitusiyası və hüququn əsasları” fənni üzrə tədris proqramının müzakirəsi və təsdiqi

**Qərar:**

“Azərbaycan Respublikasının Konstitusiyası və hüququn əsasları” fənni üzrə Qurbanova Gülnarə Kazım qızının tərtib etdiyi proqram tədris üçün məqsədəuyğun hesab edilərək bəyənilsin. Proqram təsdiq olunmaq üçün Kollecin pedaqoji şurasının müzakirəsinə verilsin.

“__Ş.S.Əfəndiyeva____”
fənn birləşmə komissiyasının sədri: ________

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI İDARƏETMƏ VƏ TEXNOLOGİYA KOLLECİ**

Pedaqoji şuranın "__12___" ____09____2017-ci il tarixli______1____saylı

**PROTOKOLUNDAN ÇIXARIŞ**

**Gündəlik məsələ:**

"Humanitar və iqtisadiyyat" fənn birləşmə komissiyasının üzvü Qurbanova Gülnarə Kazım qızı tərəfindən yazılmış "Azərbaycan Respublikasının Konstitusiyası və hüququn əsasları" fənni üzrə tədris proqramının müzakirəsi və təsdiqi.

**Qərar:**

Kollecin müəllimi Qurbanova Gülnarə Kazım qızı tərəfindən yazılmış "Azərbaycan Respublikasının Konstitusiyası və hüququn əsasları" fənni üzrə proqrama qrif almaq üçün rəy verilməsini Azərbaycan Respublikası Təhsil Nazirliyindən xahiş edirik.

Bakı İdarəetmə və Texnologiya kollecinin direktoru: ____________ Varis Allahverdiyev

Pedaqoji Şuranın katibi: ___________Ruxsarə Nəsibova